# 47 İLDƏN SONRA

























## «Xudafərin» – görüş yeri...

. . .

Məzunların görüş yerini «Xudafərin» şadlıq sarayını seçmələri təsadüfi deyildi. Bütün dünyaya səpələnmiş, (dağılmış da demək olar) - azərbaycanlıların hamısının düşüncəsində Xudafərin birlik və eyni zamanda həm də ayrılıq rəmzi olaraq obrazlaşıb. Son XX əsrin 90-cı il hadisələri bütöv 100 illikdə ayrıca xarakterizə oluna biləcək faciəvi hadisələr kimi yaddaşımıza yazılıb.

Onsuz da həyata müstəqillik istəyi ilə qovuşmuş gənclərin bir-birini aramaq, bir-birini görmək... istəyi həmişə var. Təbiidir ki, bu hissləri Cəbrayıl rayonu Soltanlı kənd orta məktəbinin 47 il bundan əvvəl məzunu olmuş o zamanın gəncləri, bu zamanın ahıllarını da bir yerə toplayan həmin istək idi - bir-birini görmək, uzaq gənclik illərində qalmış xatirələri yaddaşa qaytarmaq...

Həmin dövrdə (1972-ci ildə) Soltanlı kənd orta məktəbini 25 nəfər gənc bitirmişdi. Onlardan bir çoxu ən müxtəlif səbəblərdən həyatla vidalaşıb. Görüşə 11 nəfər gəlmişdi. Görünür, digərlərinin gəlmək imkanı olmayıb və yaxud tədbir haqqında məlumat ala bilməyiblər. O dövrdə məktəbin direktoru Nəriman Sadıqov olub. Direktorun tədris işləri üzrə müavini İbrahim Verdizadə idi. Məzunlar hələ tədbir başlamamışdan yaddaşlarında canlı olaraq yaşatdıqları müəllimlərinin adlarını çəkdilər. Tarix müəllimi Məhyəddin Quliyev, riyaziyyat müəllimi Novruz Bünyadov, fizika müəllimi Fərrux Həsənov, Azərbaycan dili və ədəbiyyatı müəllimləri Şaban Verdiyeva və Fəridə Babaşova... xatırlandı. Onlar haqqında xoş və həm də kədər dolu xatirələr dilə gəldi. Axı indi onların əksəriyyəti həyatda yoxdur.

Tədbiri giriş sözü ilə Hacı Kamal Bəşirov açdı. O, professor İsmayıl Kazımovla birgə bu tədbirin baş tutması üçün necə maneələri də dəf etdiklərini dedi. Kamal Bəşirov tədbirdə həyat yoldaşı Şəfəq xanımla birgə iştirak edirdi. Onlar eyni sinifdə oxuyublar və sonra ailə qurublar. Şəfəq xanım da ali təhsil alıb, kimyaçıdır. Bu illər ərzində Soltanlı məktəbini, istiqanlı sinif yoldaşlarını unutmadığını bildirdi.

Açılışdan sonra məzunların 47 illik həyat yolu haqqında hüquqşünas Cəfər Cəfərov əhatəli və dolğun məruzə elədi. Hər bir məzunun o dövrdəki gənc obrazını xatirələrlə canlandırmağa çalışdı. Xoş duyğular oyadan, bəzən kədər gətirən əhvalatlar şirin söhbətə çevrilib dəyişdikcə, məzunlar sanki uzaq keçmişdə qalmış həyatlarını təzədən yaşayırdılar.

Nəsir Xankişiyev Azərbaycan Dillər Universitetinin dosentidir, filologiya üzrə fəlsəfə doktoru, şairdir. Çıxışında qeyd etdik ki, ən çətin günlərində o illərin xatirələri yaddaşında oyanır və onu həyata, yaşamağa ruhlandırır.

Tədbirin təşkilatçılarına təşəkkürünü bildirdi və onu da əlavə etdi ki, bu görüş yeni bir xatirəyə çevriləcək və onların mənəvi mühiti üçün həyat stimulu olacaq.

Rafiq Fətullayev maliyyəçidir. Cəbrayıl təsil şöbəsində mühasib işləyir. O, ədəbiyyat vurğunu kimi çıxış elədi. Dərin təəssürat oyadan şeirlərini də oxudu.

Məharət Bünyadov iqtisadçıdır. Həyat yolunda, bir az da dəqiqləşdirsək, 47 il ərzində qazandığı uğurları sadaladı. Həyatını yaşadığı ömrün faktları əsasında şərh etdi.

Əli və Minayə Quliyevlər də vaxtilə bir sinifdə oxuyublar və sonra ailə qurublar. Əli tarix müəllimidir, Minayə sinif müəlliməsidir. Əli həm də jurnalist fəaliyyətilə məşğul olur. Soltanlı məktəbinə Niyazqulular kəndindən gəlib. Kənddən olan sinif yoldaşları ilə dostluğundan danışdı və bu gün də həmin hissləri fəxarətlə qoruyub saxladığını dedi: «Mən həyat yoldaşım Minayə ilə 47 il bundan əvvəlki həyatımızı tez-tez xatırlayırıq. Ona görə də sizin heç birinizi unutmamışıq». Minayə müəllimə də həyat yoldaşı Əli müəllimin sözlərinə qüvvət verdi. Düşüncələrini keçmiş sinif yoldaşları ilə bölüşdü.

Tədbirdə Aqon Məhəmməd ləqəbli bir məzun da danışdı. Xatirələrini odlu-alovlu hisslərlə, həm də səmimiyyətlə canlandırdı. Soltanlı kənd məktəbinə Əmirvarlıdan gəldiyini dedi.

Allahverdi Əliyev Soltanlı kəndinin özündən olub. Məzunlarla görüşdən çox məmnun olduğunu, hətta kövrəldiyini də bildirdi.

KREDO

№30 (955) 18 iyul 2019-cu il

# 47 İLDƏN SONRA

*(Əvvəli 13-cü səhifədə)*

Çingiz Həsənov fizika müəllimidir: «Mən ayağımı bərk dirəmişəm. İstəyirəm ki, məzunların 60 illiyində də yığışaq». Bu arzu onün gələcəyə necə nikbin yanaşdığını bildirirdi.

Valeh Cəbrayılov Soltanlı məktəbinə Alıkeyxalı kəndindən gəlib. «Çox olurdu ki, yolu piyada gəlib, piyada qayıdırdım. Bu əziyyətlər gözümə görünmürdü. Çünki həmyaşıdlarımla çox mehriban idim.

Professor İsmayıl Kazımov dilçidir, türk dilləri üzrə mütəxəssisdir. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunda Müasir Azərbaycan dili şöbəsinin müdiridir. Onun çıxışı da bir növ həmyaşıdları qarşısında 47 illik hesabat təsiri bağışladı. Elmi yaradıcılığından danışdı: «Çoxlu kitablarım, dərslik və proqramlarım çap olunub, elmi əsərlərim işıq üzü görüb. Dünyanın müxtəlif ölkələrində Azərbaycan dilçiliyinin, türkologiyanın aktual problemləri ilə bağlı məruzələr etmişəm. Tez-tez dəvət olunuram, demək olar ki, dünyanın ən ucqar elm mərkəzlərinə hava yolu ilə səyahətlərim var. Amma təəssüf ki, həsrətində olduğum Soltanlıya gedə bilmirəm. Mən görürəm ki, burada ahıl, yaşa dolmuş həmyaşıdlarım var. Yurd ayrılığı bizi vaxtından əvvəl qocaldır, ruhumuzu sarsıdır. Düşünürəm ki, qismət olar, növbəti yubiley görüşümüzü Soltanlıda, elə öz ermənilər tərəfindən dağıdılmış doğma məktəbimizdə qeyd edərik.

Soltanlı kənd ərazi nümayəndəsi Mahir Səfərov tədbirdə iştirak elədi. Qeyd elədi ki, Soltanlı kəndinin məzunları, elə bu gün görüşə gəlmiş hər bir şəxs Qarabağ mənəvi mühitinin qorunmasında yaddaşın sağlam özüllər üzə-rində yaşarılığında əvəzsiz xidmətlər göstərir. Mənəvi sağlamlığa, dövlətçiliyə xidmət hər bir vətəndaşın borcudur. Bu tədbir göstərir ki, biz birliyə - məqsədimiz uğrunda ümumi mübarizəyə hər zaman hazırıq.

Tədbirin aparıcısı, filologiya üzrə tədqiqatçı Çapar Fərid Kazımlı idi. O, tədbirin canlı və maraqlı olmasını təmin etdi. Çapar Kazımlı hər bir məzunun həyat yolu haqqında qısa və dolğun məlumatla tədbir iştirakçılarını razı saldı.

Tədbirə qonaq kimi mən də dəvət olunmuşdum. Tədbir iştirakçıları arasında dostlarım da var idi. Onlarla görüş mənim üçün də çox xoş və təsirli oldu. Ürək sözlərimi 47 ilin həsrətlilərinə çatdırmağı özümə borc bildim.

Qeyd etdim ki, bir vaxt Soltanlı kəndindən pərvazlanmış görkəmli elm və mədəniyyət xadimləri var ki, xalqımız onların hər birinin adı ilə fəxr edir: İctimai xadim Həsən Həsənov, akademik Tofiq Hacıyev, Əməkdar elm xadimi Qəzənfər Kazımov, kimya elmləri doktorları Allahverdi Verdizadə, Nailə Verdizadə... əlbəttə, bu siyahını davam etdirmək olar. Ancaq elə bu adlar da bəs eləyir ki, Soltanlının Azərbaycanın elmi-mədəni mühitində necə yer tutduğunu təsəvvür edə bilək.

Soltanlı kənd orta məktəbinin o vaxtkı məzunları ətraf kəndlərdən - Alıkeyxalıdan, Hasanlıdan, Əmirvarlıdan, Niyazqululardan, Yanarxac kəndlərindən gəlib Qarabağda elm mərkəzi kimi tanınan məşhur Soltanlı kəndində orta təhsil almışdılar. İndi də bu kənddə oxuduqlarından fəxarət duyduqlarını bildirirlər.

Görüş yeri «Xudafərin». 47 ildən sonra ayrılıq hisslərinin kövrək duyğuları... amma hamını bir istək, bir arzu birləşdirir - tezliklə Qarabağa qayıtmaq, Cəbrayıla dönmək. Doğma yurd yerlərində bir-birinə qonaq olmaq, bir-birinin xeyir-şərində iştirak etmək...

Yaş ötür, zaman keçir. Ən yaxşı hisslər nəsildən-nəslə ötürülərək yaşanır.

*Əli Rza XƏLƏFLİ*
*11.07.2019*

**REDAKSİYA HEYSSTİ**

**Əli Rza Xələfli -**
***baş redaktor***
(www.eli-rza-xele - fli.net)

**Asif Rüstəmli**
**Ağarəhim Rəhimov**
**Baba Babayev**
**Bədirxan Başkeçidli**
**Cahid İsmayıloğlu**
**Elçin Kamal**
**Elçin Tanrıdağ (İsgəndərzadə)**
**Firuz Mustafa**
**Hafiz Rüstəm**
**Hüseynbala Mirələmov**
**İsa Həbibbəyli**
**Gülşən Əliyeva - Kəngərli**
**Gülxani Pənah**
**Qəzənfər Kazımov**
**Qəzənfər Paşayev**
**Qurban Bayramov**
**Mahmud Allahmanlı**
**Nizaməddin Şəmsizadə**
**Nizami Cəfərov**
**Nizami Məmmədov**
**Paşa Qəlbinur**
**Salatın Əhmədli**
**Şəddat Cəfərov**
**Təyyar Salamoğlu**
**Vaqif Yusifli**
**Xanəli Kərimli**
**Yusif Nəğməkar**

***Təsisçi:***
**Q. FİKRSST**

***Buraxılışa məsul:***
***Şakir ALBALIYEV***

**Qəzet Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır.**
**Lisenziya 022610**
**Dövlət qeydiyyatı haqqında şəhadətnamə № R-112**
**İndeks 0367**

**Azərbaycan**
**Bankı Nəri**
**kod 8**
**Mh 000042**
**hh 777706 A**

**VÖEN 1**